**DOI:** https://doi.org/10.59849/2957-3882.2025.2.109

# MÜASİR DÜŞÜNCƏDƏ TƏBİİ VƏ SÜNİ İNTELLEKTİN VƏHDƏTİ PROBLEMİ

**İradə ZƏRQAN**
*Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA Fəlsəfə və Sosiologiya*
*İnstitutunun aparıcı elmi işçisi*
*E-mail: iradazargan@gmail.com*

*Daxilolma tarixi: 05.06.2025*
*Düzəliş tarixi: 21.11.2025*
*Nəşrə təsdiq tarixi: 28.11.2025*

## XÜLASƏ

Elmi məqalədə təbii və süni intellektin oxşar və fərqli cəhətləri, canlı insanı mexaniki təqlid edən maşın və mexanizmlərin həyatımıza gətirdiyi yeniliklər tədqiq olunur. Qeyd olunur ki, süni intellektin insan ağlını əvəz etməsi nəticəsində psixoloji metodların yerini proqnozlaşdırma və nəzarətin fizioloji üsulları tutur. Qnoseologiyanın varisləri hesab olunan yeni istiqamətlərin biliklər sisteminə daxil olması yeni sosial-psixoloji münasibətlər yaradır. Süni intellektin tətbiq sahələrində normal diskursu anormal diskursdan fərqləndirmək üçün dini və dünyəvi biliklərin vəhdətinə əsaslanan riyazi sistemin qurulması vacibdir.

Müəllif insan idrakı və süni intellektin fəlsəfi təhlilini aparır. Tədqiqatda "İnsan düşüncəsini robotlarda və maşınlarda təqlid etmək mümkündürmü?" sualına cavab axtarılır. Tədqiqatçı bildirir ki, fəlsəfə yalnız məlumat toplamaq deyil, həm də hikməti, mənanı və əxlaqi seçimləri anlamaqdır. Təbii intellekt yalnız məlumatı qavramır, həm də mənasını və etik dəyərini anlayır. Süni intellekt isə yalnız proqramlaşdırılmış verilər əsasında işləyir; nəticələrin məsuliyyəti hər zaman insana aiddir.

Müəllif göstərir ki, süni intellekt də elə təbii intellektin aynası olmalıdır ki, bəşəriyyət təhlükəsizlikdən qismən əmin olsun. Halbuki süni intellekt hələlik əmək və informasiya vasitəsi kimi istifadə edilir; etik qərarlar, məsuliyyət və hikmət yalnız insan idrakı vasitəsilə həyata keçirilə bilər. Süni intellekt təbii intellektin aləti rolunda çıxış edir. Alətin isə əxlaqı və məsuliyyəti olmur, o yalnız icraçıdır. Süni intellekt aləti hər hansı məqsədə çatmanı yalnız sistemli şəkildə həll edə, sürətləndirə və asanlaşdıra bilir (xətalar və nasazlıqlar istisna deyil).

***Açar sözlər:*** *süni intellekt, təbii intellekt, insan, maşın, fəlsəfə, vəhdət*

# ПРОБЛЕМА ЕДИНСТВА ЕСТЕСТВЕННОГО И ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В СОВРЕМЕННОЙ МЫСЛИ

**Ирада ЗАРГАН**
*Доктор философии по философии, доцент, ведущий научный сотрудник Института философии и социологии НАНА*
*E-mail: iradazargan@gmail.com*

*Дата поступления: 05.06.2025*
*Дата исправления: 21.11.2025*
*Дата утверждения к публикации: 28.11.2025*

## АННОТАЦИЯ

В научной статье исследуются сходства и различия естественного и искусственного интеллекта, а также нововведения, которые привносят в нашу жизнь машины и механизмы, механически имитирующие живого человека. Отмечается, что вследствие замещения человеческого разума искусственным интеллектом психологические методы уступают место физиологическим способам прогнозирования и контроля. Включение в систему знаний новых направлений, считающихся наследниками гносеологии, формирует новые социально-психологические отношения. Для различения нормального дискурса от аномального в сферах применения искусственного интеллекта важно создание математической системы, основанной на единстве религиозных и светских знаний.

Автор проводит философский анализ человеческого познания и искусственного интеллекта. В исследовании ищется ответ на вопрос: «Возможно ли имитировать человеческое мышление в роботах и машинах?» Исследователь подчёркивает, что философия — это не только сбор информации, но и понимание мудрости, смысла и нравственного выбора. Естественный интеллект не только воспринимает информацию, но и осознаёт её смысл и этическую ценность. Искусственный интеллект действует лишь на основе запрограммированных данных; ответственность за результаты всегда принадлежит человеку.

Автор показывает, что искусственный интеллект также должен быть зеркалом естественного интеллекта, чтобы человечество хотя бы частично могло быть уверено в безопасности. Однако на сегодняшний день искусственный интеллект используется лишь как средство труда и информации; этические решения, ответственность и мудрость могут быть реализованы только посредством человеческого познания. Искусственный интеллект выступает в роли инструмента естественного интеллекта. Инструмент же не обладает нравственностью и ответственностью — он лишь исполнитель. Инструмент искусственного интеллекта способен системно решать, ускорять и облегчать достижение любой цели (ошибки и неисправности не исключены).

***Ключевые слова:*** *искусственный интеллект, естественный интеллект, человек, машина, философия, единство*

# THE PROBLEM OF THE UNITY OF NATURAL AND ARTIFICIAL INTELLIGENCE IN CONTEMPORARY THOUGHT

**Irada ZARGAN**
*Assoc. Prof., PhD, Leading Research Fellow*
*Institute of Philosophy and Sociology,*
*Azerbaijan National Academy of Sciences*
*E-mail: iradazargan@gmail.com*

*Date of submission: 05.06.2025*
*Date of revision: 21.11.2025*
*Date of acceptance for publication: 28.11.2025*

## ABSTRACT

The scientific article examines the similarities and differences between natural and artificial intelligence, as well as the innovations introduced into our lives by machines and mechanisms that mechanically imitate the human being. It notes that as artificial intelligence increasingly replaces human mental activity, psychological methods are being superseded by physiological techniques of prediction and control. The inclusion of new fields—considered heirs of epistemology—into the system of knowledge generates new socio-psychological relations. To distinguish normal discourse from abnormal discourse in the application areas of artificial intelligence, it is essential to establish a mathematical system based on the unity of religious and secular knowledge.

The author provides a philosophical analysis of human cognition and artificial intelligence. The study seeks to answer the question: "Is it possible to imitate human thinking in robots and machines?" The researcher emphasizes that philosophy is not merely the accumulation of information but also the understanding of wisdom, meaning, and moral choices. Natural intelligence not only perceives information but also comprehends its meaning and ethical value. Artificial intelligence, however, operates solely on programmed data; responsibility for its outcomes always rests with humans.

The author demonstrates that artificial intelligence must reflect natural intelligence in order for humanity to attain even partial assurance of safety. However, artificial intelligence is currently used merely as a tool for labor and information; ethical decisions, responsibility, and wisdom can be realized only through human cognition. Artificial intelligence functions as an instrument of natural intelligence. An instrument possesses neither morality nor responsibility—it merely executes. The artificial-intelligence instrument can only systematically solve problems, accelerate processes, and facilitate the achievement of a given purpose (errors and malfunctions are not excluded).

***Keywords:*** *artificial intelligence, natural intelligence, human, machine, philosophy, unity*

**Giriş**

Müasir ədəbiyyatlarda "süni intellekt fəlsəfəsi" anlayışına rast gəlinir. Suallar yaranır: İnsanın düşüncə mədəniyyətini robota şamil etmək nə dərəcədə doğrudur? Axı "fəlsəfə" anlayışı hikməti sevməklə əlaqədardır. Maşın, robot, pua barəsində hikməti sevmək xüsusiyyətini, düşüncə mədəniyyətini ifadə edən "fəlsəfə" anlayışı necə tətbiq oluna bilər? Məlumdur ki, mexaniki cihazların hikməti sevmək və ya sevməmək kimi marağı və istəyi yoxdur. Süni intellektə əsaslanan cihazlar xüsusi verilənlər bazası əsasında öz proqramına müvafiq işləyir. Onun vəziyyətə uyğun funksiyalar seçməsi insanla müqayisədə çox məhduddur (1). Buna baxmayaraq onlara müvafiq əmrlər verməklə, gözlənilən nəticələr almaq mümkündür. Deməli, yenə də məsuliyyət insanın - təbii intellektin üzərindədir. Predmetin dəyişməsi subyekti dəyişmir.

**Qnoseologiyanın varisi - süni intellekt**

Süni intellekt fəlsəfəsi (SİF) süni intellektlə işləyən predmetlərin insan həyatına, onun etika, şüur, qnoseologiya, azad iradə, bilik və idraka təsirlərini araşdıran fəlsəfi tədqiqat sahəsidir. Elmin Sİ sahəsi süni heyvanların və ya süni insanların yaradılması ilə məşğul olduğundan, SİF də bir yaradıcılıq və sahəsi hesab olunur. Burada problem yaranan süni intellekt cəmiyyətinin fəlsəfəni rədd edərək yerinə riyaziyyatı qoymaq təhlükəsidir. Əslində həm süni intellekt, həm də fəlsəfə üçün ortaq cəhət bilik və bacarıqları anlamaq və səmərəli şəkildə həyata tətbiq etməkdir. Fəlsəfə digər elm sahələrində olduğu kimi, süni intellekt sahəsində də açar rolunu oynayır. David Deutsch yazır ki, "Süni intellekt əldə edilə bilər, lakin insanlar kimi düşünən maşınları inkişaf etdirmək üçün kompüter elmləri və nevrologiyadan daha çox şey lazımdır". (1) O, tamamilə haqlıdır. Məsələn, süni intellektin də hüququ, etikası olmalıdır ki: universal normaları tanısın, xeyir və şər arasında doğru seçim edə bilsin.

İnsan beyninin maddi cisimlərdən üstün imkanlara malik olduğunu söyləmək artıqdır. Beyin kosmosun varlığını, rəqəmlərin funksiyasını, hadisə və proseslərin səbəbini bilməklə yanaşı, insanın öz fitrətinə sadiq olmasını əxlaqi norma hesab edən yeganə obyektdir. Onun qabiliyyət zənginliyi daha genişdir. İnsan mühitin təsirlərini və öz fəaliyyətinin nəticələrini hesablayan, yarana biləcək təhlükələrdən özünü sığortalamağı bacaran məxluqdur. Süni intellektin tətbiqi zamanı isə hər bir vəziyyətdə mövcud olan bütün hərəkətlər və hərəkətlərin görülməsinin nəticələri qeydə alınır. Süni intellekt bu qeydlərdən kənara çıxa bilməz. Deməli onun funksiyası sonludur, təbii intellektə məxsus intuisiyadan məhrumdur. Ona görə də müasir düşüncəyə təbii və süni intellektin vəhdəti kimi baxıla bilər. Çünki bütün sahələrdə olduğu kimi, fəlsəfə də süni intellektlə bağlıdır. Süni intellektdən mütərəqqi istifadə edilməsi və cəmiyyətə təsirlərinin araşdırılması yenə də fəlsəfənin, xüsusilə etikanın tədqiqat obyekti olaraq qalır. Elm fəlsəfəsi kontekstində Popperin falsifikasionist konsepsiyasının substantiv məntiqi-metodoloji prinsiplərinin qeyri-səlis məntiq nəzəriyyəsinin konseptual - metodoloji bazisinin formalaşmasına tətbiqini süni intellekt və təbii intellektin vəhdəti probleminin həllində səciyyəvi hal kimi nəzərdən keçirmək olar.

"Məlumdur ki, elmin inkişafında elmi-nəzəri konsepsiyaların formalaşmasının və inkişafının metodoloji xüsusiyyətlərinə dair tədqiqatlarda göstərildiyi kimi, ilkin nəzəriyyələrin konseptual məzmunu yeni işlənib hazırlanmış nəzəriyyənin əsas prinsipinə istinad edilməklə, onun konseptual tərkibinə daxil edilir." (6, 129) Bu isə yeni yaradılmış elmi-nəzəriyyənin əsas prinsipinin müəyyən edilməsi və tədqiqat obyektinin tərkibində yeni substansional münasibətlərin aşkar edilməsini, habelə müvafiq məntiqi-metodoloji prinsiplərin tətbiqini tələb edir.

Riçard Rorti "Fəlsəfə və təbiətin güzgüsü" əsərində "ağıl", "bilik" və "fəlsəfə" anlayışlarını nəzərdən keçirmiş, bəşəri perspektivdə intuisiyanın roluna diqqət çəkmişdir. Rortiyə görə, əgər psixoloji metodların yerini proqnozlaşdırma və nəzarətin fizioloji üsulları tutarsa (süni intellektdə olduğu kimi), hətta intuisiyalar da dəyişə bilər. Əsərin birinci hissəsi insanın güzgü mahiyyətindən, ikinci hissəsi isə qnoseologiyanın varisləri hesab olunan yeni istiqamətlərdəki son cəhdlərdən bəhs edir. Üçüncü fəsildə qnoseologiya anlayışının genezisi ilə kartezyen ağıl anlayışının əlaqəsi təhlil edilir. O, bilik nəzəriyyəsini biliyə dair iddiaların əsaslandırılması ilə vəhdətdə nəzərdən keçirir.

R.Rortinin sosial təcrübələrin və postulatlaşdırılmış psixoloji proseslərin qarışığı kimi təqdim etdiyi konsepsiyası səbəb-nəticə əlaqələri arasındakı ziddiyyətə əsaslanır. R.Rortinin fikirləri Kuaynenin verilənlər və Sellarsın zəruri bilik haqqındakı müddəaları ilə əlaqədardır. Onun fikrincə bu iki filosof gerçəkliyi olduğu kimi nəzərdən keçirməyə imkan verir. Məhz reallığın dəqiq təsviri nəyə inanmaq lazım gəldiyi haqqında təsəvvür yaradır. (3, 7-8) Rorti əsərin üçüncü hissəsinin yeddinci fəslində obyektiv biliyin meyarlarına (elmi, siyasi, teoloji və s.) istinadən normal diskursun anormal diskursdan fərqini izah edir. “Biz mövzu müstəvisində qnoseologiyanın bəhrəsinə sahib olmağa çalışmamalı, əksinə, fəlsəfəni elmi araşdırma çərçivəsinin kəşfi funksiyasından azad etməliyik. Xüsusilə, fəlsəfənin elmin açıqlanmayan şeyləri izah edə biləcəyi anlayışından əl çəkməliyik. Mənim fikrimcə, “universal praqmatika” və ya “transsendental hermenevtika”nın özünü inkişaf etdirmək cəhdi çox şübhəlidir.” (3, 281) O, qnoseologiya ilə əlaqəsi olmayan, lakin normal fəlsəfi araşdırmanı mümkün edən sistematik fəlsəfənin yeni formasının tapılacağını ehtimal edir. (3, 292) Hələlik isə, süni intellekt və təbii intellektin vəhdətinə əsaslanan müasir düşüncə istənilən real problemlə təmasda yenə də ağlın, idrakın, əxlaqın köməyinə möhtacdır.

**Süni intellekt fəlsəfəsi**

Süni intellekt fəlsəfəsi “Maşın ağıllı hərəkət edə bilərmi? İnsanın düşünərək həll edəcəyi hər hansı problemi həll edə bilərmi? İnsan zəkası və maşın zəkası eynidirmi? İnsan beyni “kompüter”dirmi?” və s. suallara cavab axtarır. Bu suallar süni intellekt üzrə tədqiqatçıları, koqnitiv elm adamlarını və filosofları maraqlandırır. Ağıl və şüur haqqındakı elmi cavablar məhz hansı “maşınların” müzakirə olunmasından asılıdır.

İnsan - müasir taksonomik adıyla Homo sapiens - başqa məməlilərə nisbətən zehni inkişafa malik beyinə, təfəkkürə və məntiq qabiliyyətinə, iki ələ, iki ayağı üstündə dik duruşa və hərəkətə sahib canlıdır. İnsanı dünyadakı digər canlılardan fərqləndirən başlıca xüsusiyyətlər: maraq və məqsədləri üçün əmək alətləri yaratması və istifadə etməsi, özünü və başqalarını tanıması, müşahidə, müqayisə, mücərrədləşdirmə, ümumiləşdirmə yolu ilə hadisə və proseslərə dəyər verməsi, ideyalarını sözlə ifadə etməsi, biliyini qələmə alaraq özündən sonra gələn nəsillərə ötürməsidir. İnsanın ən üstün cəhəti təbiət, cəmiyyət və idrakının nəticələri üçün məsuliyyət daşımasıdır.

“Kainatın məqsədini və bəşəri funksiyanın nə olduğunu bilmək üçün təkcə kainatı meydana gətirən əsas komponentlərə (maddə, struktur və proseslərə) baxmağın yetərli olması metodoloji baxımdan ciddi bir yanlış olardı. Yekun cavab yalnız kainatın fövqündə ola bilər... Bizə ağlın verilməsinin əsas səbəbi təkcə bu heyranedici kainat evini kəşf etmək deyil, eyni zamanda bizə bu evi verən Varlığın bizdən nə istədiyini anlamaqdır” (4, 363). Con Lennoks “Matilda nənənin keksi” misalı ilə Tanrının öz yaratdığı kainatdakı maddənin fövqündə, əslində rasional bir prinsipdən daha böyük bir həqiqət olduğunu izah edir. Matilda nənənin bişirdiyi bir keksdirsə, Tanrının yaratdığı insan daha geniş funksiyalara malikdir. Əgər bir Tanrı varsa və bizə informasiya vermişsə, bizim həqiqət axtarışımızın ən doğru cavabı Onun özünün bizə çatdırdığı məlumatlar olacaqdır. Beləliklə, “Elmin Tanrını rədd etməsi kimi bir məsələ yoxdur... İnsan zəkası varlığını ya şüursuz maddəyə, ya da bir Yaradana borcludur. Bəzi insanların ikinci ehtimalın yerinə birinci fərziyyəni seçmələri və buna səbəb kimi ağıl və zəkalarını göstərmələri, doğrusu olduqca qəribədir...” (4, 366).

Andre Kont-Sponvil insan haqqında demişdir ki, özünü tanımaq heyran-heyran özünü seyr etmək deyil, insanın həm nə olduğunu, həm də nə olmalı olduğunu öyrənməsidir; necə düşünəcəyini, necə yaşayacağını, necə xoşbəxt olmağı özünə bəxş etməsidir. Martin Lüter yazır ki, quşlar kimi uçmağı, balıqlar kimi üzməyi öyrəndik, lakin çox sadə bir sənəti unutduq: İnsan kimi yaşamağı. Mark Tvenin fikri də maraqlıdır: “... o yalnız xarici təsirlər tərəfindən hərəkət etdirilir və istiqamətləndirilir. İnsan heç bir şeyi, bir fikri belə özbaşına yarada bilməz” (2, 9).

**Süni intellekt təbii intellektin, təbii intellekt Yaradanın əsəridir**

Süni intellekt insanın təbii intellektinin təqlidi nəticəsidir. O, insanı əks etdirir. İnsan özü də güzgü mahiyyətinə malikdir: gördüyü, eşitdiyi, bildiyini əks etdirir. Bu keyfiyyətin ən gözəl

nümunəsi Allahın rəsulu Muhamməd salavatullahdır. Onun əxlaqı haqqında "Muhamməd iki ayaqlı Qurandır" hədisi-şərifi mövcuddur. Xanımı hz. Aişə Muhammədin əxlaqını soruşanlara cavabında demişdi: "Allahın rəsulu Muhammədin əxlaqı Quran əxlaqıdır" O, Quran hikmətinə sadiq olmuş, İslam dini tərbiyəsi almışdır. Quranın insanda təcəssümü Muhamməd əleyhissalamdır. O, davranışı və fəaliyyətində güzgü kimi Quranı əks etdirmiş, eyni zamanda digər insanlara güzgü olmuşdur.

Allahın rəsulu İslamın güzgüsü, rəsul isə möminlərin güzgüsüdür. Qurani-kərimdə müsəlmanların bu xüsusiyyətləri haqqında deyilir: "Beləliklə Biz sizi orta bir ümmət etdik ki, siz insanlara şahid olasınız, peyğəmbər də sizə şahid olsun. Biz, əvvəl üz tutduğun qibləni ancaq ona görə təyin etdik ki, peyğəmbərin ardınca gedənləri üz döndərənlərdən fərqləndirək. Bu, Allahın doğru yola yönəltdiyi şəxslərdən başqa (hamısına) ağır gəldi. Allah sizin imanınızı puç etməz. Həqiqətən də, Allah insanlara qarşı Şəfqətlidir, Rəhmlidir." (7, 2/143)

Şahiddə güzgü xüsusiyyəti olmalı, gördüyü və eşitdiyini olduğu kimi: artırıb-azaltmadan, doğru əks etdirməlidir, hikmətə sadiq və ədalətli olmalıdır. Quranın "Bəqərə" surəsinin 272-ci ayəsində buyurulur: "(Ey Rəsulum!) İnsanları doğru yola yönəltmək sənin borcun deyildir. (Sənin vəzifən ancaq onları haqq yola dəvət etməkdir). Allah kimi istərsə, onu doğru yola yönəldər. Malınızdan sərf etdiyiniz hər hansı bir şey (mənfəəti) ancaq özünüz üçündür. Siz onu yalnız Allahın razılığını qazanmaq üçün verirsiniz. Malınızdan verdiyiniz hər hansı bir şeyin əvəzi tamamilə sizə ödəniləcəkdir. Sizə əsla zülm edilməz!" (7, 2/272)

Təkcə "Bəqərə" surəsində deyil, Quranın digər ayələrində də dində məcburiyyətin olmaması dönə-dönə xatırladılır. Qeyd edilməlidir ki, dində məcburiyyətin olmaması haqqındakı ayələr müasir ədəbiyyatlarda birtərəfli izah edilir. Bu yalnız dini əqidə azadlığına şamil edilmir, daha vacib məsələ dinin insanların bir-birini məcbur etməsinə qarşı olmasıdır. Yuxarıdakı surədə olduğu kimi, "Əbəsə" surəsində də insanların biri-birindən deyil, hər kəsin özündən məsul olmasına işarə edilir və bildirilir ki, "Onun təmizlənməməyinin sənə bir dəxili yoxdur. (7, 80/7) Yəni, sən özünlə məşğul ol, özünü tərbiyə et, mənəviyyatını saflaşdıran "güzgü" ol ki, sənə baxan həqiqəti doğru əks etdirdiyindən əmin olsun. Yalnız o halda müqabilin də səni əks etdirəcək. Deməli, süni intellekt elə təbii intellektə ayna olmalıdır ki, bəşəriyyət əxlaq və məsuliyyət hissini itirməsin, gələcək təhlükəsizlikdən qismən əmin olsun.

Müasir psixoloqların gəldikləri yekdil qənaətə görə, insanlar sözdən daha çox əməl, hərəkət və davranışlardan təsirlənirlər. Quran hələ VII əsrdən bu barədə xəbər verir. Onlara: "Allahın nazil etdiyinə tabe olun!" – deyiləndə onlar: "Xeyr, biz atalarımızın yolunu izləyirik!" - deyərlər. Bəs, əgər ataları bir şey anlamayıb doğru yolda deyildilərsə necə?!" (7, 2/170) Uca Yaradan nazil etdiyi kitablardakı hikməti peyğəmbərlərinin əməlləri ilə reallaşdırmış, həyata keçirmişdir. Peyğəmbərlər Allahın hikmətini güzgü kimi insanlara əks etdirmişlər. İnsanlar da mənəvi dəyərləri özlərində əks etdirərək gələcək nəsillərə və texnologiyalara ayna tutmuşlar.

Əbu Hamid Qəzali "İhya ulumiddin" əsərində insanı aynaya bənzədir. Ayna nə qədər keyfiyyətli, eyni zamanda təmiz olarsa, əksetdirmə qabiliyyəti o qədər güclü olar. Bu adi gerçəklikdir. Lakin Qəzali əsərində daha mühüm məsələ üzərində - insanın güzgü xüsusiyyətinin başqa heç nə ilə müqayisə oluna bilməyən üstünlüyü üzərində dayanır. Bu insanın seçmək hüququ, iradə azadlığı və məsuliyyət hissidir.

İnsan azad məxluq olduğu üçün əks etdirdikləri də müxtəlif olur: yönü Allaha tərəf və ya əksinə. Deməli, güzgünün keyfiyyəti və təmizliyi ilə yanaşı nəyi əks etdirməsi də çox vacibdir və nəticəyə təsir edir. Əbu Hamid Qəzali insana güzgü keyfiyyəti verən "nur" anlayışının fəlsəfəsini "Mişkətül-Ənvar" əsərində geniş təhlil etmişdir. Qəzaliyə görə güzgüdəki görüntü güzgünün rəngini və keyfiyyətini alır: yaşıl şüşədən hazırlanmış güzgü əks etdirdiyi mənzərəni yaşıl, qırmızı şüşə qırmızı göstərir. Düz aynada görüntü düz, əyri aynada əyri əks olunur. İnsan da belədir. Eyni əsər iki müxtəlif mütəxəssisin tərcüməsində fərqli təqdimatda ola bilər. Qəzalinin "Mişkətül-ənvar" əsərinin tərcüməçisi Şadı Eren bu mühüm məqamı nəzərdə tutaraq yazır: "Tərcüməçilərin bəziləri müəllifin söyləmədiyini – (ona) söylədir, bir qismi isə müəllifin söylədiyini fərqli şəkildə təqdim edir. Bunu

bilən biri kimi, mən Qəzalinin "Mişkət"inə rəngsiz və düz ayna olmağa çalışdım. Sanıram ki, əsasən müvəffəq ola bilmişəm" (8, 12)

Tərcümələrin orijinal mətnin gözəlliyini, ədəbi keyfiyyətlərini eynilə əks etdirmədiyi məlumdur. Lakin bir məsələ aydındır ki, tərcüməçinin "güzgü keyfiyyəti" nə qədər yüksəkdirsə və doğru səmtə yönəlmişsə, əsər o qədər əslinə uyğun alınır. Bəs insana "güzgü keyfiyyəti" verən nədir?

Qurani-kərimin "Nur" surəsinin 35-ci ayəsində xəbər verilir ki, "Allah göylərin və yerin nurudur! Onun nuru içində çıraq olan bir çıraqdana bənzəyir. O çıraq bir qəndilin içindədir. Qəndil isə, sanki parlaq bir ulduzdur ki, nə Şərqdə, nə də Qərbdə olan mübarək bir zeytun ağacından (çıxan yağdan) yandırılır. Onun yağı alov toxunmasa belə az qalır ki, işıq saçsın. O, nur üstünə nurdur. Allah dilədiyi kimsəni nuruna qovuşdurar. Allah insanlar üçün belə misallar çəkir. Allah hər şeyi biləndir." (7, 24/35) Allah göylərin və yerin nurudur" ifadəsi ilə bütün aləmin və aləmdəki bütün nurların və canlıların yaradıcısının Allah olduğuna işarə edilmişdir. Nuru yaradan Allaha nur deyilməsi məcazi mənadadır. Bəşəriyyətin maddi və ruhani qidası üçün əvəzsiz informasiya mənbəyi olan Quranın bu ayəsinin təfsirinə istinadən, Qəzali nurların səviyyələrini və xüsusiyyətlərini izah etmişdir. O, nurların dərəcələrini açıqlamaqla, insanlara Allahın gerçək nur olduğunu və əsla şəriki olmadığını sübut edir. Aləmin varlıq mərtəbələrində təcəlla edən nurlar isə yalnız məcazdır. Qəzaliyə görə, varlıq mərtəbələrində təcəlla edən nurların birinci səviyyəsi gözlə görməni təmin edən "maddi nur"dur. (8, 18)

Gözlə görmə baxımından varlıqlar üç növdür: 1) görünməyənlər; 2) görünən, lakin başqalarını göstərməyənlər (ulduzlar və köz); 3) görünən, eyni zamanda başqalarını göstərənlər (günəş, ay, alovun şöləsi). Məsələn: günəş, çıraq və alov özü görünməklə yanaşı, həm də ətrafın görünməsini təmin edir. Bu maddi nurun xassəsidir.

1)Nurlar aləminin birinci səviyyəsi maddi nurdur: görünür və başqasını göstərir. (8, 20)

2) Nurlar aləminin ikinci səviyyəsi göz nurudur. Göz nuru:

- başqasını görür, özünü görmür;
- önü görür, arxanı görmür;
- zahiri görür, batini görmür;
- varlıqların qismini görür, hamısını görmür;
- sonluları görür, sonsuzları görmür;
- görmədə yanıla bilir: böyüyü kiçik, uzağı yaxın, duranı hərəkətli görə bilir.

(8, 19-20)

3) Nurlar aləminin üçüncü səviyyəsi ağıl nurudur. Ağıl: başqasını gördüyü kimi, özünü də görür;

- Özündən çox uzaqda və çox yaxında olanları görür;
- Pərdə arxasında olanı da görür;
- Əşyanın zahirini gördüyü kimi, batinini də görür;
- Varlıqların bir qismini gördüyü kimi, cəmini də görür;
- Sonlu şeyləri gördüyü kimi, sonsuzu da dərk edir. Çünki göz də daxil olmaqla beş duyğu üzvü ağlın xəfiyyələridir, ona xidmət edirlər. Ağlın xəyal, fəhm, təfəkkür, yaddaş kimi köməkçiləri də vardır. (8, 21-25)

İnsan doğrulara güzgü olarsa, bəs onda yanlışlığın səbəbi nədir? – deyə soruşana Qəzalinin cavabı belədir: İnsan fəhm və xəyal pərdələrindən sıyrılarsa, qətiyyən yanılmaz. (8, 26) İnsanın fəhm və xəyaldan azad olması isə çətin məsələdir. Çünki gerçəkləri görməyə əngəl olan qəflət pərdələri adətən insan öldükdən sonra aradan qalxır. Qurani-kərim bu barədə xəbər verir: "Sən bunun (bu günün) haqqında qəflət içində idin. Amma Biz pərdəni sənin üzündən qaldırdıq. Sən bu gün çox yaxşı görürsən!" (7, 50/22)

Tədqiqatdan məlum olur ki, "nur" adlandırılmağa gözdən daha çox layiq olan ağıldır. Qəzali yazır: "Onlar arasındakı fərq nəzərə alınsa, "nur" adına layiq elə ağıldır. Ağıl hikmətlə (İslamla) birləşəndə nurlanma dəfələrlə artır. Quranın hikmət nurunun bəşəriyyətə təsirini yalnız təbiətdəki Günəş nuru ilə müqayisə etmək olar. Texnoloji nailiyyətlərin nəticəsi olan enerji mənbələrinə rəğmən

Günəş üstün olduğu kimi, süni intellektlə müqayisədə təbii intellekt daha üstündür. Çünki təbii intellektin güzgü xüsusiyyəti hikməti sadəcə əks etdirmir, həm də onun hikmət olduğunu bilir. Süni intellekt isə sadəcə oxuyur və əks etdirir (onun hikməti sevmək istəyi yoxdur), istiqamətini mexaniki olaraq seçir. Lakin bu o demək deyil ki, cəmiyyət süni intellektdən imtina etməlidir. “Süni intellekt qavranılması lazım olan materialı təchiz etməklə kifayətlənməyərək, eyni zamanda insan şüurunun mahiyyəti, onun formalaşmasında əxlaq və zəkanın hansı rol oynadığı, rasionallıq və fədakarlığın nə olduğu, nəhayət xeyir və şərin necə meydana çıxdığı barədə düşüncələrimizi dərinləşdirmək üçün imkan yaradır.” (5, 118) Deməli, təbii intellekt süni intellektlə vəhdətdə dünya qarşısında daha böyük perspektivlər aça bilər.

**Nəticə**

Bəşəriyyət tarixi boyunca, həmişə olduğu kimi, bu gün də insan yer üzünün əşrəfi funksiyasını daşıyır. Bu məsuliyyət davam etdikcə kainat süni intellektin yalnız faydasını görə bilər. Hər yeni ixtira, hər yeni kəşf insanın fiziki qüvvəsinə güc qatır, həyatını dəyişdirir. Lakin onu mənəvi, ruhi cəhətdən qidalandıra bilmir. Maddi firavanlıq bədənə rahatlıq versə də, ruh yalnız ünsiyyətdə hüzur tapır. Hüzurlu insanla aqressiv insan eyni deyildir. Onların süni intellektdən istifadəsi də fərqlidir. Güc və sürət əsrində kiçik bir yanlış böyük fəlakətlərə səbəb ola bilir. Gələcəyin dərki və proqnozlaşdırılması müasir düşüncədə süni və təbii intellektin vəhdəti probleminin həlli ilə bu və ya digər şəkildə bağlıdır.

Nəticə olaraq, süni intellekt yalnız köməkçi vasitədir və funksiyaları insana bağlıdır. Təbii intellektin etik və hikməti əks etdirən xüsusiyyəti, süni intellektin cəmiyyət üçün təhlükəsiz və faydalı olmasını təmin edir. İnsan azad iradə və məsuliyyət daşıdığı üçün hər bir texnoloji inkişafı və süni intellekti doğru istiqamətə yönləndirə bilər. Bu vəhdət insan və süni intellektin qarşılıqlı tamamlayıcı roluna əsaslanır: süni intellekt alət, vasitə, təbii intellekt isə həm güzgü, həm də etik idarəedici rolunu oynayır. Müasir dünyada süni intellektin tətbiqi yalnız təbii intellektin rəhbərliyi və hikmətinə əsaslanarsa, bəşəriyyət üçün daha geniş perspektivlər açar, eyni zamanda etik, elmi və mənəvi inkişafın təminatçısı olar.

**ƏDƏBİYYAT**


1. David Deutsch https://www.theguardian.com/science/2012/oct/03/philosophy-artificial-intelligence 01.11.2022
2. Manafov Rəşad. Şəxsiyyət kodları: enneaqram. İpəkyolu nəşriyyatı, Bakı: 2020, 256 səh.
3. Рорти Ричард. Философия и зеркало природы. Перевод с английского и предисловие В. В. Целищева. Издательство Новосибирского университета, Новосибирск: 1997, 320 стр.
4. Lennoks Con. Elm tanrı axtarışında. “Qədim qala” nəşriyyat evi, Bakı: 2020, 368 səh.
5. Məmmədzadə İlham, Buniyatov Arif. Qeyri-səlis məntiq konsepsiyasının elmi-fəlsəfi konteksdə məntiqi-metodoloji əsasları. Bakı: “Bilgi” MMC, 2021, 135 səh.
6. Məmmədzadə İlham. Qeyri-səlis məntiq nəzəriyyəsinin neorasionalizm və elm fəlsəfəsi kontekstində məntiqi-metodoloji xüsusiyyətləri. Elmi əsərlər, 2021, № 1/36, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu nəşri, səh. 128-130.
7. Qurani-Kərim, 2/27. Tərcümə: Əlixan Musayev. https://quran.az/2/272?t=22 25.12.2022.

İmam-ı Gazali. Mişkatul-Envar. Tercüme Şadı Eren. DİB yayınları, Ankara: 2014, 111 səh.